

Gilə ƏLİQIZI

## ÖMÜR YOLUMUZU DAŞ EDƏN FƏLƏK

Parlayar səmada günəşin nuru,
Qara buludları silər, darıxma.
Həsrətə, hicrana batan könlümüz
Bir gün sevincin də bölər, darıxma.

Ömür yolumuzu daş edən fələk,
Güllü yazımızı qış edən fələk,
Üzüb gözümüzü yaş edən fələk,
Gün olar, bizə də gülər, darıxma.

Sevən könülləri didən məhəbbət,
İllərin ayrısı edən məhəbbət,
Küsüb bəxtimizdən gedən məhəbbət
Nə vaxtsa qayıdıb gələr, darıxma...

## XƏSTƏYƏM, CAN ÇƏKİR YARALI RUHUM

Xəstəyəm, sanırlar çarə həkimdir,
Yaralı könlümə loğman neyləsin,
Yarın bir sözüdür çarə dərdimə,
Buna ovuc-ovuc dərman neyləsin?

Xəstəyəm, illərdir dözüm eylədim,
Şeiri son vida – sözüm eylədim,
Nə etdim özümə, özüm eylədim,
Buna yad neyləsin, düşman neyləsin?

Xəstəyəm, can çəkir yaralı ruhum,
Yerindən, yurdundan aralı ruhum,
Şəfası tapılmaz, çaralı ruhum,
Buna bəxt neyləsin, fərman neyləsin?

Xəstəyəm, yoxuşum düzə görünmür,
Xoş günlər bəs niyə bizə görünmür?
Laçının dağları gözə görünmür,
Buna çən neyləsin, duman neyləsin?

Xəstəyəm, şöləsi sönən çırağam,
İstisi azalıb, sönən ocağam.
Bütün ümidləri sönən sorağam,
Canımda qırılan güman neyləsin?..

...Gedib yurd saldığın ayrı şəhərdən,
İzimdən ayrılan izindən inci...

## ÖZÜNDƏN İNCİ

Gəl məndən incimə, ay məni sevən,
Məni görmədiyin gözündən inci.
Bir vaxt sevdamıza yanan ocaqdım,
Gedib söndürdüyün közündən inci.

Özün ayrı saldın məni özündən,
Yox oldun gözümün gördüyü yerdən,
Gedib yurd saldığın ayrı şəhərdən,
İzimdən ayrılan izindən inci.

Oldun göylər qədər uzaq ömrümə,
Sən saldın kölgəni mənim sevgimə,
Sənin yoxluğundan talan könlümə
Bir də yara vuran sözündən inci.

Çatdırdın səbrimin bitdiyi yerə,
Yoruldum, tükəndim etdiklərinə.
Kəsmə ayrılığın hesabın mənə,
Bizi bizdən edən özündən inci...

## DÜNYA

Bağın nazın çəkən bağban olsaydın,
Güllərin saralıb, solmazdı, dünya.
Sevgi olmasaydı əgər içində,
Bir qəpik dəyərin olmazdı, dünya.

Sənin ədalətin incidib, üzüb,
Söylə, gərdişinə bir kimsə dözüb?
Qarğalar qoynunda səs-səsə verib,
Bülbüllər qəfəsdə susmazdı, dünya.

Çiçəyi çölündən ayırmasaydın,
Bülbülü gülündən ayırmasaydın,
Sevəni sevəndən ayırmasaydın,
Şairlər zülmündən yazmazdı, dünya...

## SƏNİ GÖRMƏYƏNDƏ İTİR DİNCLİYİM

Səni görməyəndə itir dincliyim,
Baharın tez solan gülü oluram.
Sənsiz ürəkləri səssiz yandıran
İnləyən kamanın dili oluram.

Sənsiz sükut olan səsəm, sorağam,
Şöləsi azalan, sönən çırağam.
Səninlə alovu sönməz ocağam,
Sənsiz sönən odun külü oluram.

Gül bitməz dağlarda çən olmayanda,
Sünbüllər bar verməz dən olmayanda.
Gözümün önündə sən olmayanda
Nigaran oluram, dəli oluram.

Sənsiz buz oluram, alışmıram ki,
Susuram, kimsəyə qarışmıram ki,
Mən səni görməsəm, yaşamıram ki,
Kəfənsiz, məzarsız ölü oluram...

## GƏLİB YUXULARDA GÖRÜRSƏN MƏNİ

Gəlib yuxularda görürsən məni,
Dünyanı başıma yıxıb gedirsən.
Ay ata, yandırıb, yaxıb könlümü
Məni yalnız qoyub çıxıb gedirsən.

Ayılıb yuxudan donub qalıram,
Üzünü, sözünü yada salıram,
Elə alışıram, elə yanıram,
Gəlib dərdlərimə baxıb gedirsən.

O qədər söhbətim, sözüm var sənə,
Həm qızım, həm anam deyirdin mənə.
Sən ki bütöv idin daim sözünə,
Niyə yuxularla axıb gedirsən?

Gətirər ömrümə səni yuxular,
Könlüm parçalanar, ruhum sıxılar.
Alar başım üstün qara buludlar,
Şimşəktək parlayıb, çaxıb gedirsən...